**“KROKUS İNTERNEŞNL” səhmdar cəmiyyəti (qısaldılmış adı – “KROKUS” SC)**

**Şəxsi məlumatların emalı barəsində siyasət**

**1. Ümumi müddəalar**

**1.1.** Şəxsi məlumatların emalı barəsində bu Siyasət (sonrakı mətndə – "Siyasət") “KROKUS İNTERNEŞNL” Səhmdar Cəmiyyəti (qısaldılmış adı – “KROKUS” SC, OQRN 1027700257023, olduğu yer: Rusiya Federasiyası, Moskva vilayəti, Krasnoqorsk rayonu, Krasnoqorsk şəhəri, Mejdunarodnaya küçəsi, ev 18) tərəfindən “Şəxsi məlumatlar haqqında” 27.07.2006-cı il tarixli 152-FZ №-li Federal Qanuna (dəyişikliklər və əlavələrlə), “Reklam haqqında” 13.03. 2006-cı il tarixli 38-FZ №-li Federal Qanuna (dəyişikliklər və əlavələrlə) və şəxsi məlumatların müdafiəsi sahəsində Rusiya Federasiyasının ərazisində qüvvədə olan başqa normativ aktlara müvafiq olaraq işlənib hazırlanmışdır və tətbiq edilir.

**1.2.** Bu Siyasət “KROKUS” SC-nin şəxsi məlumatların emalı barəsində ümumi siyasətinin tərkib hissəsidir.

**1.3.** Bu Siyasət Operator tərəfindən bu Operator saytı (sonrakı mətndə – “Sayt”) vasitəsilə fiziki şəxslərdən alına biləcək və konkret fiziki şəxslə və onun şəxsi məlumatları ilə birmənalı şəkildə əlaqələndirilə biləcək bütün şəxsi məlumatlar barəsində tətbiq edilir. Bu Siyasətin qüvvəsi aşağıdakı münasibətlərə şamil edilmir:

- Operatorun əməkdaşlarının şəxsi məlumatlarının emalı zamanı yaranan münasibətlərə, çünki belə münasibətlər “KROKUS” SC-nin şəxsi məlumatların emalı barəsində ümumi siyasətinin tərkib hissəsi olan ayrıca lokal aktla nizamlanır;
- “Şəxsi məlumatlar haqqında” 152-FZ №-li Federal Qanunun (maddə 1, bənd 2) şamil edilmədiyi münasibətlərə.

**1.4.** Bu Siyasət emal olunmaq üçün qəbul edilmiş şəxsi məlumatların emalı barəsində Operatorun davranışını, öz şəxsi məlumatlarını emal olunmaq üçün Operatora çatdırmış fiziki şəxslərin (sonrakı mətndə həmçinin – “Şəxsi Məlumatların Subyekti”, “Subyekt”) şəxsi məlumatlarının avtomatlaşdırma vasitələrindən istifadə edilməklə və həmin vasitələrdən istifadə edilmədən emalının həyata keçirilməsi qaydasını və şərtlərini müəyyən edir, şəxsi məlumatların emalı ilə əlaqədar Rusiya Federasiyası qanunvericiliyinin pozulması hallarının qarşısının alınmasına, belə pozuntuların nəticələrinin aradan qaldırılmasına yönəldilmiş prosedurları müəyyən edir.

**1.5.** Siyasət Subyektlərin şəxsi məlumatlarının emalı zamanı onların hüquq və azadlıqlarının müdafiəsinin təmin edilməsi məqsədilə, həmçinin Operatorun Subyektlərin şəxsi məlumatlarının əlçatan olduğu vəzifəli şəxslərinin şəxsi məlumatların emalını tənzimləyən tələbləri və normaları yerinə yetirməməsinə görə məsuliyyətinin müəyyən edilməsi məqsədilə işlənib hazırlanmışdır.

**1.6.** Operator aşağıdakı şəxsi məlumatların emalını həyata keçirir:

- soyad, ad;

- telefon nömrəsi;

- elektron poçtun ünvanı;

- Şəxsi Məlumatların Subyektinə göstərilmiş və göstərilən xidmətlər haqqında məlumatlar;

- Şəxsi Məlumatların Subyektinin müraciətlərinin tarixi, o cümlədən Subyekt tərəfindən Operatora müraciətlər zamanı göndərilən sənədlər.

**1.7.** Saytın xidmətlərindən istifadə zamanı Operator həmçinin, Saytdan istifadə prosesində kompüterdə qurulmuş proqram təminatı vasitəsilə avtomatik surətdə ötürülən başqa simasızlaşdırılmış məlumatları da emal edir:

- istifadə edilən brauzer (və ya sayta girişin həyata keçirilməsinə kömək edən başqa proqram) haqqında məlumatlar;

- IP-ünvan;

- cookie fayllarının məlumatları.

Operator zəmanət verir ki, Operatora münasibətdə kənar təşkilatların, Rusiya Federasiyasının qüvvədə olan qanunvericiliyində və bu Siyasətdə açıq-aydın qeyd olunmuş hallar istisna olmaqla, Operator tərəfindən istifadə oluna biləcək məlumatlara giriş imkanları yoxdur. Bu bölmədə göstərilməyən şəxsi məlumatlar alındıqda, belə məlumatlar dərhal məhv edilməlidir.

**1.8.** Operator Subyektlərin şəxsi məlumatlarının emalını aşağıdakı məqsədlərlə məlumat bazalarının avtomatlaşdırılmış, mexaniki üsullarla və əl ilə idarə edilməsi yolu ilə həyata keçirir:

**1.8.1.** Şəxsi Məlumatların Subyektinin razılığı olduqda, Operatorun mallarının, işlərini və xidmətlərinin bazarda irəliləyişi, Operator tərəfindən keçirilən aksiyalar, tədbirlər, endirimlər marketinq kampaniyaları haqqında bildirişlər üçün;

**1.8.2.** Operatorun müvafiq hərəkətləri qüvvədə olan qanunvericiliyə zidd olmadıqda, əgər göstərilən emalın həyata keçirilməsinə Şəxsi Məlumatların Subyektinin razılığı alınmışdırsa, başqa məqsədlər üçün;

**1.8.3.** bu Siyasətin 1.7 bəndində göstərilmiş məlumatlar, Saytın analitikasının həyata keçirilməsi, Saytdan istifadə prinsiplərinin ziyarətçilər tərəfindən izlənilməsi və anlaşılması, Saytın fəaliyyətinin təkmilləşdirilməsi, Saytın texniki problemlərinin həlli, yeni məhsulların hazırlanması, xidmətlər genişləndirilməsi, tədbirlərin populyarlığının aşkar edilməsi və reklam kampaniyalarının effektivliyinin təyin olunması; təhlükəsizliyin təmin edilməsi və dələduzluğun qarşısının alınması, müştərilərə effektiv dəstək verilməsi məqsədilə emal edilir.

**1.9.** Operator şəxsi məlumatların emalını aşağıdakı hərəkətlərdən hər hansı birinin və ya bu hərəkətlərin məcmusunun icrası vasitəsilə həyata keçirir: - məlumatların toplanması; - yazılması; - sistemləşdirilməsi; - yığılması; - saxlanması; - dəqiqləşdirilməsi (yenilənməsi, dəyişiklik edilməsi); - çıxarılması; - istifadə edilməsi; - ötürülməsi (yayılması, təqdim edilməsi, əldə edilməsi); - simasızlaşdırılması; - bloklanması; - silinməsi; - məhv edilməsi.

## 2. Şəxsi məlumatların alınması, istifadəsi və açıqlanması

**2.1.** Operator Subyektin şəxsi məlumatlarının emalına onun razılığı alındığı andan həmin məlumatları alır və onların emalına başlayır. Əgər Federal Qanunda başqa hal müəyyən edilməmişdirsə, Şəxsi məlumatların emalına Şəxsi Məlumatların Subyekti tərəfindən razılıq bu razılığın alınması faktını təsdiq etməyə imkan verən istənilən formada verilə bilər: yazılı, şifahi və ya qüvvədə olan qanunvericiliklə nəzərdə tutulmuş başqa formada, o cümlədən Şəxsi Məlumatların Subyekti tərəfindən konklyudent hərəkətlər vasitəsilə. Şəxsi Məlumatların Subyektinin onun şəxsi məlumatlarının emalına razılığı olmadığı halda belə emal həyata keçirilmir.

**2.2.** Şəxsi Məlumatların Subyektlərinin şəxsi məlumatları Operator tərəfindən aşağıdakı üsullarla alınır:

- məlumatlar Saytda elektron şəkildə uçot formalarına daxil edilən vaxt Şəxsi Məlumatların Subyekti tərəfindən şəxsən ötürülməsi yolu ilə;
- şəxsi məlumatların qorunması haqqında Rusiya Federasiyasının qanunvericiliyinə və beynəlxalq qanunvericiliyin tələblərinə zidd olmayan başqa üsullarla.

**2.3.** Şəxsi Məlumatların Subyekti tərəfindən aşağıdakı hərəkətlərdən hər hansı birinin və ya bu hərəkətlərin məcmusunun icra edilməsi şəxsi məlumatların emalına razılıq verilməsi hesab edilir:

- şəxsi məlumatların emalına razılığın alınmasından əvvəl tanış olmaq üçün təklif edilən mətndə nəzərdə tutulmuş həcmdə, orada göstərilən məqsədlər üçün və göstərilən qaydada razılıq haqqında Saytda müvafiq formada işarə qoyulması

**2.4.** Razılıq müəyyən olunmuş qaydada alınmış hesab edilir və şəxsi məlumatların emalının dayandırılması haqqında müvafiq ərizə Şəxsi Məlumatların Subyekti tərəfindən Operatorun olduğu yerə göndərilən ana qədər qüvvədə olur.

**2.5.** Şəxsi Məlumatların Subyekti istənilən vaxt öz şəxsi məlumatların emalına razılığını geri çağıra bilər, bu şərtlə ki, belə prosedur Rusiya Federasiyasının qanunvericiliyinin tələblərini pozmasın. Şəxsi məlumatların emalına razılığın geri çağırılması üçün Şəxsi Məlumatların Subyekti aşağıda göstərilən poçt ünvanına yazılı xəbərdarlıq göndərməlidir: 143401, Rusiya Federasiyası, Moskva vilayəti, Krasnoqorsk rayonu, Krasnoqorsk şəhəri, Mejdunarodnaya küçəsi, ev 18. Şəxsi Məlumatların Subyekti öz şəxsi məlumatlarının emalına razılığını geri çağıracağı təqdirdə Operator həmin məlumatların emalını dayandırmalı və ya (əgər şəxsi məlumatların emalı Operatorun tapşırığı ilə hərəkət edən başqa şəxs tərəfindən həyata keçirilirsə) belə emalın dayandırılmasını təmin etməli və əgər şəxsi məlumatların emalı məqsədləri üçün onların saxlanılması daha tələb olunmursa, əgər Şəxsi Məlumatların Subyektinin tərəf, mənfəətgötürən və ya zamin olduğu müqavilədə və ya Operator ilə Şəxsi Məlumatların Subyekti arasında başqa razılaşmada başqa hal nəzərdə tutulmamışdırsa, yaxud əgər “Şəxsi məlumatlar haqqında” 27.07.2006-cı il tarixli 152-FZ №-li Federal Qanunda və ya başqa federal qanunlarda nəzərdə tutulmuş əsaslarla Operatorun Şəxsi Məlumatların Subyektinin

razılığı olmadan şəxsi məlumatların emalını həyata keçirməyə haqqı yoxdursa, göstərilən razılığın geri çağırılması üçün ərizənin daxil olması tarixindən ən geci 30 (otuz) gün ərzində şəxsi məlumatları məhv etməli və ya (əgər şəxsi məlumatların emalı Operatorun tapşırığı ilə hərəkət edən başqa şəxs tərəfindən həyata keçirilirsə) onların məhv olunmasını təmin etməlidir.

**3. Şəxsi məlumatların emalının qaydaları**

**3.1.** Bu Siyasətin hədəflərinə nail olmaq üçün Şəxsi məlumatların emalına Operatorun yalnız o əməkdaşları cəlb edilir ki, belə vəzifə onların xidməti (əmək) vəzifələrinə uyğun olaraq onlara həvalə edilmiş olsun. Operator öz əməkdaşlarından şəxsi məlumatların emalı zamanı onların məxfiliyinin və təhlükəsizliyinin təminatına riayət olunmasını tələb edir.

**3.2.** Bu Siyasətə uyğun olaraq Operator şəxsi məlumatların emalını müstəqil surətdə, həmçinin üçüncü şəxsləri cəlb etməklə həyata keçirə bilər, üçüncü şəxslər Operator tərəfindən cəlb edilir və bu Siyasətdə göstərilmiş məqsədlərin icrası üçün şəxsi məlumatların emalını həyata keçirirlər.

**3.3.** Şəxsi məlumatların emalı üçüncü şəxsə tapşırıldığı halda, emal olunmaq üçün üçüncü şəxsə verilən şəxsi məlumatların həcmi emalları və həmin şəxs tərəfindən istifadə edilən emal üsullarının sayı onun Operator qarşısında öz vəzifəsini icra etməsi üçün minimum zəruri miqdarda olmalıdır. Şəxsi məlumatların üçüncü şəxs tərəfindən emal edilməsi ilə əlaqədar, belə şəxsin üzərinə şəxsi məlumatların emalı zamanı onların məxfiliyinə riayət etmək və məlumatların təhlükəsizliyini təmin etmək vəzifəsi qoyulur.

**3.4.** Operator xidmətlərin təqdim edilməsi prosesində, daxili təsərrüfat fəaliyyətini həyata keçirərkən şəxsi məlumatların emalı üçün həm hesablama texnikası vasitələrinin tətbiqinə əsaslanan avtomatlaşdırılmış üsullardan, həm də kağız sənəd dövriyyəsinin tətbiqinə əsaslanan avtomatlaşdırılmamış üsullardan istifadə edir. Operator yalnız şəxsi məlumatların avtomatlaşdırılmış emalına əsaslanaraq Şəxsi Məlumatların Subyekti barəsində hüquqi nəticələr doğuran və ya başqa üsulla onun hüquqlarına və qanuni mənafelərinə toxunan qərarlar qəbul etmir. Operator Şəxsi Məlumatların Subyektlərinin şəxsi informasiyasını daxili reqlamentə uyğun olaraq saxlayır.

**3.5.** Şəxsi Məlumatların Subyekti tərəfindən özü haqqında informasiyanın qeyri-məhdud əhatəli şəxslərin ümumi istifadəsi üçün könüllü surətdə təqdim edilməsi halları istisna olmaqla, Subyektin şəxsi informasiyası barəsində məxfilik qorunur. Bu halda Şəxsi Məlumatların Subyekti razılaşır ki, onun şəxsi informasiyasının müəyyən hissəsi hər kəs üçün əlyetərli olur.

**4. Şəxsi məlumatların müdafiəsinə dair reallaşdırılan tələblər haqqında məlumatlar**

**4.1.** Operatorun şəxsi məlumatların emalı üzrə fəaliyyəti alınmış informasiyanın məxfiliyinin Operator tərəfindən qorunması ilə ayrılmaz surətdə bağlıdır.

**4.2.** Əgər Federal Qanunda başqa hal nəzərdə tutulmamışdırsa, Operator şəxsi məlumatlara giriş əldə etmiş başqa şəxslərdən Şəxsi Məlumatların Subyektinin razılığı olmadan şəxsi məlumatların üçüncü şəxslərə açılmamasını və yayılmamasını tələb edir.

**4.3.** Əgər bu, Rusiya Federasiyasının qüvvədə olan qanunvericiliyinə zidd deyildirsə, Operatorun bütün işçiləri şəxsi məlumatların, həmçinin Operator tərəfindən müəyyən edilmiş başqa məlumatlarin məxfiliyini təmin etməyə borcludurlar.

**4.4.** Şəxsi məlumatların emalı zamanı onların təhlükəsizliyinin təmin olunması məqsədilə Operator şəxsi məlumatların qanunsuz və ya təsadüfən istifadəsi, məhv edilməsi, onlara dəyişikliklər edilməsi, bloklanması, surətinin çıxarılması, təqdim edilməsi və yayılması hallarından, həmçinin onların barəsində başqa qanunsuz hərəkətlərdən qorumaq üçün zəruri və kafi hüquqi, təşkilati və texniki tədbirlər görür. Operator şəxsi məlumatların təşkilati və texniki müdafiəsi üzrə reallaşdırılan bütün tədbirlərin qanuni əsaslarla, o cümlədən şəxsi məlumatların emalı məsələlərinə dair Rusiya Federasiyası qanunvericiliyinin tələblərinə uyğun olaraq həyata keçirilməsini təmin edir.

**4.5.** Operator şəxsi məlumatların təhlükəsizliyinin təmin olunması üçün zəruri və kafi hüquqi, təşkilati və texniki tədbirlər görür. Buraya aşağıda göstərilən tədbirlər daxildir:

- şəxsi məlumatların informasiya sistemlərində emalı zamanı onların təhlükəsizliyinə təhdidlərin müəyyən edilməsi;
- şəxsi məlumatların informasiya sistemlərində emalı zamanı onların təhlükəsizliyinin təmin olunması üzrə təşkilati və texniki tədbirlərin icrası şəxsi məlumatların qorunması üçün Rusiya Federasiyası Hökuməti tərəfindən müəyyən edilmiş səviyyələri təmin edir;
- informasiyanın qorunması vasitələrinin uyğunluğunun qiymətləndirilməsi üçün lazımi prosedurun tətbiqi;
- şəxsi məlumatların informasiya sistemi istismara veriləne qədər şəxsi məlumatların təhlükəsizliyin təmin olunması üzrə görülən tədbirlərin effektivliyinin qiymətləndirilməsi;
- şəxsi məlumatların maşın daşıyıcılarının uçotu;
- şəxsi məlumatlardan icazəsiz istifadə faktlarının aşkar edilməsi və müvafiq tədbirlər görülməsi;
- icazəsiz istifadə nəticəsində dəyişilmiş və ya məhv edilmiş şəxsi məlumatların bərpası;
- şəxsi məlumatlardan icazəsiz istifadə və (və ya) onların belə informasiyadan istifadə etmək hüququ olmayan şəxslərə ötürülməsinin qarşısının alınmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsi;

- şəxsi məlumatlardan icazəsiz istifadə faktlarının vaxtında aşkar edilməsi və lazımlı tədbirlər görülməsi;

- şəxsi məlumatların avtomatlaşdırılmış emalının texniki vasitələrinə onların fəaliyyətinin pozulması ilə nəticələnə biləcək təsirlərin qarşısının alınması;

- şəxsi məlumatların informasiya sistemində emal edilən şəxsi məlumatlardan istifadə qaydalarının müəyyən edilməsi, həmçinin şəxsi məlumatların informasiya sistemində emal edilən şəxsi məlumatlar üzərində aparılan bütün əməliyyatların qeydiyyatının və uçotunun təmin edilməsi;

- şəxsi məlumatların informasiya sistemində şəxsi məlumatların təhlükəsizliyinin və onların qorunması səviyyəsinin təmin olunması üzrə görülən tədbirlərə nəzarət.

Şəxsi məlumatların təhlükəsizliyinə aktual təhdidlər və tətbiq edilən informasiya texnologiyaları nəzərə alınmaqla şəxsi məlumatların müdafiəsi sistemi çərçivəsində Operator tərəfindən şəxsi məlumatların təhlükəsizliyin təmin olunması üzrə reallaşdırılan tədbirlərin tərkibinə bunlar daxildir:

- istifadə subyektlərinin və istifadə obyektlərinin eyniləşdirilməsi və müəyyənləşdirilməsi;
- istifadə subyektləri tərəfindən istifadə obyektlərinə girişin idarə edilməsi;
- proqram mühitinin məhdudlaşdırılması;
- şəxsi məlumatların saxlandığı və (və ya) emal edildiyi maşın informasiya daşıyıcılarının müdafiəsi;
- təhlükəsizliyin pozulması hallarının qeydiyyatı;
- antivirus müdafiəsi;
- müdaxilələrin aşkar edilməsi (qarşısının alınması);
- informasiya sisteminin və şəxsi məlumatların bütövlüyünün təmin edilməsi;
- virtuallaşma mühitinin müdafiəsi;
- texniki vasitələrin müdafiəsi;
- informasiya sisteminin, informasiya vasitələrinin, rabitə və məlumatların ötürülməsi sistemlərinin müdafiəsi;
- informasiya sistemində nasazlıqlara və ya onun fəaliyyətinin pozulmasına və (və ya) şəxsi məlumatların təhlükəsizliyinə təhdidlərin yaranmasına gətirib çıxara biləcək insidentlərin (bir hadisənin və ya hadisələr qrupunun) üzə çıxarılması və onlara cavab tədbirləri;
- informasiya sisteminin və şəxsi məlumatların mühafizə sisteminin konfiqurasiyasının idarə edilməsi.

**4.6.** Şəxsi məlumatların mühafizə səviyyəsinin "Şəxsi məlumatlar haqqında" 27.07.2006-cı il tarixli 152-FZ №-li Federal Qanunun və "İnformasiya, informasiya texnologiyaları və informasiyanın qorunması haqqında" 27.07.2006-cı il tarixli 149-FZ №-li Federal Qanunun tələblərinə uyğunluğunun təmin edilməsi məqsədilə Operator şəxsi məlumatların informasiya təhlükəsizliyinin təmin olunması üçün tətbiq edilən konkret vasitələr və tədbirlər haqqında informasiyanı açıqlamır.

**4.7.** Operator Şəxsi Məlumatların Subyektindən alınmış informasiyanı açıqlamamağı öhdəsinə götürür. Operator tərəfindən Şəxsi Məlumatların Subyekti qarşısında öhdəliklərin icrası üçün Operatorla müqavilə əsasında fəaliyyət göstərən agentlərə və üçüncü şəxslərə informasiyanın verilməsi qanun pozuntusu hesab edilmir. Qanunun əsaslandırılmış və tətbiq edilə bilən tələblərinə uyğun olaraq informasiyanın yayılması öhdəliklərin pozulması hesab edilmir.

## 5. Telekommunikasiya şəbəkələri vasitəsilə reklam informasiyasının alınmasına razılıq

**5.1.** Şəxsi Məlumatların Subyekti paylanan reklam informasiyasının alınması üçün sifariş verməklə / reklam informasiyasına abunə olmaqla:

- Saytın müvafiq veb-səhifəsində işarə qoymaq yolu ilə bu Siyasətin 1.8.1 bəndində göstərilmiş informasiya mesajlarını, o cümlədən kommersiya xarakterli reklam informasiyasını (reklamı) Operatordan və Operator tərəfindən cəlb edilmiş üçüncü şəxslərdən, telekommunikasiya şəbəkələri (verilmiş mobil telefonun nömrəsi və elektron poçt ünvanı) almağa razılığını bildirir.

**5.2.** Şəxsi Məlumatların Subyekti bu Siyasətin 5.1 bəndində göstərilmiş razılığı verərək, öz iradəsi üzrə və öz mənafeyi üçün fəaliyyət göstərməsini, həmçinin göstərilən şəxsi məlumatların mötəbər olduğunu təsdiq edir.

## 6. Yekun müddəalar

**6.1.** Bu Siyasət “KROKUS” SC-nin Birinci Vitse-Prezidentinin əmri ilə təsdiq olunur və onun tərəfindən imzalandığı gündən qüvvəyə minir.

**6.2.** Bu Siyasətə “KROKUS” SC-nin Birinci Vitse-Prezidentinin əmri ilə təsdiq olunmuş dəyişikliklər və əlavələr edilə bilər.

**6.3.** Siyasətin qüvvədə olan versiyası bu Saytda İnternet şəbəkəsində açıq istifadə üçün yerləşdirilmişdir.